


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

30 iyul 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 28 (3791)


# Azərbaycanın qlobal yüksəlişi



## Prezidentin çoxvektorlu siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu artırır

*Müasir beynəlxalq münasibətlər sistemi mürəkkəb siyasi proseslər, silahlı münaqişələr, iqtisadi böhranlar və qlobal təhlükəsizlik çağırışları ilə səciyyələnir. Belə şəraitdə Azərbaycan məhz milli maraqlara, beynəlxalq hüquqa və qarşılıqlı hörmət prinsipinə əsaslanan müstəqil xarici siyasəti sayəsində regionun etibarlı və nüfuzlu dövlətləri sırasında mövqeyini daha da möhkəmləndirib.*

Bu siyasətin əsasını ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin isə dövrün tələblərinə uyğun inkişaf etdirdiyi çoxvektorlu diplomatik xətt təşkil edir. Bu strategiya Azərbaycanın müxtəlif siyasi və iqtisadi güc mərkəzləri ilə bərabərhüquqlu münasibətlər qurmasına, beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməsinə şərait yaradıb.

Azərbaycanın Avropa istiqamətində həyata keçirdiyi siyasət xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz Avropa İttifaqının 10-dan çox üzv dövləti ilə strateji tərəfdaşlıq sənədləri imzalayıb. Hazırda Azərbaycan 12 Avropa ölkəsinə təbii qaz ixrac edir ki, onların da 10-u Avropa İttifaqının üzvüdür. Bununla yanaşı, Xəzər hövzəsindən Avropaya uzanacaq yaşıl enerji kabeli layihəsi və xam neft tədarükü Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu daha da gücləndirir.

Amerika Birləşmiş Ştatları ilə münasibətlər də qarşılıqlı maraqlara əsaslanan strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, nəqliyyat dəhlizləri və regional sabitliyin qorunması Bakı ilə Vaşinqton arasında əməkdaşlığın əsas istiqamətlərini təşkil edir.

Azərbaycanın Çin Xalq Respublikası ilə münasibətləri də son illərdə yeni mərhələyə yüksəlib. Ölkəmiz “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən dövlətlərdən biri kimi müasir nəqliyyat infrastrukturu vasitəsilə Çinlə Avropa arasında təhlükəsiz və səmərəli yükdaşımada mühüm rol oynayır.

Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi və Mərkəzi Asiya ölkələri ilə əlaqələrin genişləndirilməsi də Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindəndir. Orta Dəhliz layihəsi Asiya ilə Avropanı birləşdirən etibarlı logistika marşrutu kimi ölkəmizin geostrateji əhəmiyyətini daha da artırır.

Azərbaycan diplomatiyası Yaxın Şərq, Afrika və Latın Amerikası ölkələri ilə əməkdaşlığı da ardıcıl şəkildə genişləndirir. Qoşulmama Hərəkatına uğurlu sədrlik dövründə ölkəmiz inkişaf etməkdə olan dövlətlərin maraqlarının müdafiəsinə mühüm töhfələr verib, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində isə müsəlman dünyası ilə həmrəyliyini davam etdirib.

Hazırda Azərbaycan Bakı Təşəbbüs Qrupu vasitəsilə neokolonializmə qarşı beynəlxalq mübarizəyə dəstək verir, iqlim dəyişikliklərindən əziyyət çəkən kiçik ada dövlətlərinin problemlərini qlobal gündəmə çıxarır və çoxtərəfli diplomatiyada fəal rol oynayır.

Azərbaycanın beynəlxalq nüfuzu güclü iqtisadi potensiala, daxili sabitliyə və Prezident İlham Əliyevin ardıcıl xarici siyasət kursuna əsaslanır. Bu siyasət Azərbaycanı söz sahibi etməklə, ölkəmizin milli maraqlarını etibarlı şəkildə qoruyur.

# Vətəndaş müraciətləri prioritetdir

## Baxılan hər bir müraciət polisə etimadı daha da gücləndirir

Dövlət-vətəndaş münasibətlərinin ən mühüm göstəricilərindən biri insanların problemlərini aidiyyəti dövlət orqanlarına maneəsiz çatdıra bilməsi və həmin müraciətlərə qanun çərçivəsində obyektiv baxılmasının təmin edilməsidir. Daxili İşlər Nazirliyində vətəndaş qəbullarının təşkili və müraciətlərə operativ baxılması da məhz bu prinsiplərə əsaslanır. Vətəndaşın qəbula gəlməsi dövlətə, qanuna və ədalətə olan inamın ifadəsidir.

*(Ardı 2-ci səhifədə)*

# Süni intellekt və hüquqi məsuliyyət

## Qlobal çağırışlar və rəqəmsal inkişaf strategiyaları

XXI əsr süni intellekt texnologiyalarının sürətli inkişafı ilə xarakterizə olunur. Bu texnologiyalar dövlət idarəçiliyindən iqtisadiyyata, səhiyyədən təhsilə, hüquq-mühafizə orqanlarının fəaliyyətindən mediaya qədər demək olar ki, bütün sahələrdə yeni imkanlar yaradır. Süni intellekt qərar qəbuletmə prosesini sürətləndirir, resurslardan daha səmərəli istifadəyə şərait yaradır və göstərilən xidmətlərin keyfiyyətini artırır. Lakin bu inkişaf yalnız texnoloji yenilik deyil.

*(Ardı 2-ci səhifədə)*

# İkitərəfli əlaqələr konstruktivdir

## Prezidentlər əməkdaşlığın genişlənməsində maraqlı olduqlarını təsdiqləyiblər

İyulun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İkitərəfli və beynəlxalq gündəliyə dair aktual məsələləri müzakirə edən liderlər Azərbaycan - Rusiya əlaqələrinin konstruktiv xarakter daşıdığını, hökumətlərin və müvafiq strukturların xətti ilə fəal dialoqun aparıldığını qeyd ediblər.

Faydalı əməkdaşlığın daha da genişlənməsinə dair qarşılıqlı maraq təsdiqlənib.

# Prezident həmkarını təbrik edib

## Müttəfiqlik münasibətləri də müzakirə olunub

Prezident İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək onu doğum günü münasibətilə təbrik edib.

Telefon söhbəti zamanı Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətinə də toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub.

Dövlət başçıları, həmçinin gələcək təmaslar barədə razılıqlarını ifadə edərək, qarşılıqlı maraq doğuran məsələlərə və ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

# Tarixi turnir Azərbaycanda keçiriləcək

## Prezident bununla bağlı Sərəncam imzalayıb

Azərbaycan Prezidenti İlham Əliyev 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının 2026-cı ildə ölkəmizdə keçirilməsi ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası Şurası Bürosunun 2026-cı il 25 iyun tarixli qərarına uyğun olaraq, idman tarixində ilk dəfə təşkil ediləcək “FIFA U-15 World Cup and Festival” 2026-cı il oktyabrın 22-dən 31-dək Azərbaycanda keçiriləcək.

Sənəddə qeyd olunur ki, bu mötəbər yarışa Azərbaycanın ev sahibliyi etməsi ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzunun daha da möhkəmlənməsinə, futbolun inkişafına və irimiqyaslı idman yarışlarının təşkili sahəsində əldə olunan təcrübənin zənginləşməsinə töhfə verəcək.

Sərəncama əsasən, turnirin keçirilməsi ilə bağlı tədbirlərin əlaqələndirilməsi və zəruri məsələlərin həlli 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinə həvalə olunub.


**Bakıda növbəti sıra baxışı keçirilib** 2



**Yay mövsümündə təhlükəsizliyin keşiyində** 3



**Sərhədləri aşan əməkdaşlıq** 4




**Üz tanıma texnologiyası** 4



POLİS 2

# Respublika Xəbərləri

### Prezident qanuna dəyişikliyi təsdiqlədi

Prezident İlham Əliyev "Psixiatriya yardımı haqqında" qanuna dəyişiklikləri təsdiqləyib. Yeni qaydalara əsasən, müəyyən hallarda inzibati xəta törətmiş şəxsə razılığı olmadan psixiatriya müayinəsi və zəruri hallarda məcburi yardım göstərilə biləcək. Dəyişikliklər məcburi hospitallaşdırma zamanı təhlükəsizlik tədbirlərini və tibbi xarakterli məcburi müalicənin aparılması qaydalarını da müəyyənləşdirir.

### Mülkiyyət hüququ genişlənir

İşğaldan azad edilmiş ərazilərdə Daimi Məskunlaşdırma Fondu yaradılacaq. Yeni qaydalara əsasən, fonda daxil olan yaşayış sahələri məcburi köçkünlərə icarə ilə deyil, mülkiyyət hüququ əsasında veriləcək. Qanun dəyişiklikləri statusun itirilməsi halları və sosial müdafiə tədbirlərinin tətbiqi qaydalarını da dəqiqləşdirir.

### Sosialyönlü xərclər artıb

Bu ilin altı ayında dövlət büdcəsi xərclərinin 52,4 faizi və ya 8 milyard 787 milyon 100 min manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib. Bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 951,3 milyon manat və ya 12,1 faiz çoxdur.

### Qarabağ "yaşıl enerji" ilə işıqlanır

Azərbaycanın azad edilmiş ərazilərində indiyədək 2 500-dən çox fərdi yaşayış evində, ictimai və sosial binalarda ümumi gücü 8 000 kVt-dan çox olan günəş panelləri və 8 000-dən artıq LED əsaslı işıqlandırma qurğusu quraşdırılıb. İşıqlandırma qurğularının 43 faizi, yəni təqribən 3 500 ədədi günəş enerjisi ilə işləyən hibrid sistemlərdir.

### Yenidənqurmaya vəsait ayrılıb

Bu ilin ilk yarısında işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına 1 milyard 64,1 milyon manat vəsait ayrılıb. Maliyyənin əsas hissəsi yol və yaşayış infrastrukturu layihələrinin icrasına yönəldilib. Eyni zamanda, səhiyyə və mədəniyyət obyektlərinin tikintisi, ərazilərin minalardan təmizlənməsi, eləcə də müdafiə və hüquq-mühafizə təyinatlı obyektlərin inşası maliyyələşdirilib.

### "Böyük Qayıdış" prosesi davam edir

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" Proqramı çərçivəsində Cəbrayıl, Ağdərə və Xocalının 10 kəndinə növbəti köç mərhələsi həyata keçirilib. Bu mərhələdə 65 ailə, ümumilikdə 257 nəfər doğma yurduna qayıdıb. Sakinlərə yeni evlərinin açarları təqdim olunub.

### İpotekada süni intellekt dövrü

Azərbaycanda ipoteka kreditləşdirilməsi və satmaq öhdəliyi ilə kirayə mənzil mexanizminə süni intellekt həllərinin tətbiqi planlaşdırılır. Məqsəd xidmətlərin tam rəqəmsallaşdırılması, vətəndaşlardan tələb olunan sənədlərin minimuma endirilməsi və fiziki təması azaldılmasıdır.

### İxraca yeni dəstək

Azərbaycanda qeyri-neft-qaz məhsulları ixrac edən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə yeni dəstək mexanizmi tətbiq olunacaq. Yeni qaydalara əsasən, ixrac zamanı ödənilən gömrük rəsmiləşdirilməsi yığımları dövlət tərəfindən kompensasiya ediləcək. Mexanizm 2026-cı il sentyabrın 1-dən 2031-ci il sentyabrın 30-dək həyata keçirilən ixrac əməliyyatlarını əhatə edəcək.

### Payızlıq taxıl biçini yekunlaşıb

İyulun 27-dək ölkə üzrə payızlıq taxıl sahələrinin 92 faizində biçin yekunlaşıb. Mövsüm ərzində 883 min 995 hektar sahədə biçin aparılıb və nəticədə 3 milyon 38 min 467 ton məhsul yığılıb. Respublikanın 20 rayonunda biçin tam başa çatıb, 22 rayonunda isə yekunlaşmaq üzrədir.

### Pensiya təminatı elektronlaşdırılıb

Bu ilin yanvar-iyun aylarında 97 208 pensiya, müavinət və təqaüd təyinatı elektron infrastruktur üzərindən proaktiv qaydada həyata keçirilib. Bu barədə Dövlət Sosial Müdafiə Fondunun məlumatına görə, onlardan 22 690-ı pensiya, 65 564-ü müavinət və 8 954-ü təqaüd təyinatıdır.

### Şəhid övladlarına qayğı

Naxçıvanda şəhid övladları üçün yay düşərgəsi təşkil olunub. Düşərgə çərçivəsində iştirakçılar üçün intellektual, maarifləndirici, idman və əyləncə proqramları keçirilib. Layihənin məqsədi onların bilik və bacarıqlarını inkişaf etdirmək, asudə vaxtlarını səmərəli təşkil etmək və sosial ünsiyyətlərini gücləndirməkdir. Tədbirdə şəhid xanımları da iştirak ediblər.

# Bakıda növbəti sıra baxışı keçirilib

## Daxili işlər naziri növbəti mərhələyə buraxılan gənclərə tapşırıq və tövsiyələrini verib





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 167 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Vətəndaş müraciətləri prioritetdir

## Baxılan hər bir müraciət polisə etimadı daha da gücləndirir

**Hər məsələnin arxasında insan taleyi, ailə problemi, pozulmuş hüququn bərpası kimi müxtəlif ehtiyaclar dayanır. Buna görə də Daxili İşlər Nazirliyində hər bir müraciətə fərdi yanaşılır, qaldırılan məsələlər qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılaraq müvafiq qərarlar qəbul edilir.**

*(Əvvəli 1-ci səhifədə)*

Nazirlikdə vətəndaş qəbulları müntəzəm əsasda keçirilir. Qəbullar zamanı qaldırılan məsələlər aidiyyəti struktur bölmələrinin iştirakı ilə araşdırılır, mümkün olan hallarda yerində həll edilir. Əlavə araşdırma tələb edən müraciətlər isə nəzarətə götürülərək icra olunur. Bu yanaşma həm operativliyi, həm də qəbul edilən qərarların obyektivliyini təmin edir.

Cari ilin ilk altı ayının nəticələri də bu sahədə görülən işlərin miqyasını əks etdirir. Daxili İşlər Nazirliyinin son Kollegiya iclasında qeyd olunduğu kimi, hesabat dövründə 3 889 vətəndaş qəbul edilib və qaldırılan məsələlərin böyük əksəriyyəti qanuni həllini tapıb.

Vətəndaş müraciətlərinin araşdırılması yalnız konkret problemlərin həllinə xidmət etmir. Bu proses cəmiyyəti narahat edən məsələlərin müəyyənləşdirilməsinə, xidmət keyfiyyətinin yüksəldilməsinə, profilaktik tədbirlərin planlaşdırılmasına və idarəetmə mexanizmlərinin daha da təkmilləşdirilməsinə imkan yaradır. Məhz buna görə müraciətlərin təhlili Nazirliyin fəaliyyətində mühüm idarəetmə alətlərindən biri hesab olunur.

Son illər rəqəmsal texnologiyaların tətbiqi və elektron müraciət imkanlarının genişləndirilməsi bu məsələyə xüsusi töhfə verib. Elektron xidmətlər insanların vaxt itkisi olmadan müraciət etməsinə, müraciətlərin daha qısa müddətdə araşdırılmasına və nəticələrin operativ şəkildə çatdırılmasına şərait yaradır. Yəni vətəndaş DİN rəhbərliyinə birbaşa müraciət etmək, sözünü eşitdirmək üçün bütün imkanlar yaradılıb.

Bu məqsədlə Daxili İşlər Nazirliyi vətəndaş müraciətlərini həm ənənəvi, həm də müasir kommunikasiya vasitələri ilə qəbul edir. Vətəndaşlar müraciətlərini poçt, elektron xidmətlər, mobil tətbiqlər və sosial şəbəkələr vasitəsilə rahat şəkildə ünvanlaya bilirlər. Nazirliyə daxil olan bütün müraciətlər operativ araşdırılır, hər biri üzrə qanunvericiliyin tələblərinə uyğun əsaslandırılmış cavablar təqdim edilir və müraciət müəlliflərinə hüquqları izah olunur.

Vətəndaşlarla operativ ünsiyyət üçün sosial media platformalarından daha səmərəli istifadə edilir. Cari ilin hesabat dövründə Daxili İşlər Nazirliyinin sosial şəbəkə hesablarının mesaj bölməsinə daxil olan 21 507 müraciətin hər biri cavablandırılıb. Bu müraciətlər cinayətkarlıqla mübarizə, yol hərəkəti təhlükəsizliyi, ictimai asayiş, qanunvericilik məsələləri, polis əməkdaşlarının fəaliyyəti, vakansiyalar və digər istiqamətləri əhatə edib.

Daxili İşlər Nazirliyində istənilən müraciətə sadəcə sənəd dövriyyəsinin tərkib hissəsi kimi baxılmır. Bu, vətəndaşın hüquq və mənafelərinin qorunmasına yönəlmiş məsuliyyətli fəaliyyət istiqamətidir. Müraciətlərə həssas münasibət, qanunun aliliyinin təmin edilməsi, şəffaflıq və obyektivlik prinsipləri əsas meyar kimi müəyyən olunub.

Dinlənilən müraciətlər, qanun çərçivəsində həll olunan problemlər vətəndaşların dövlətə inamını möhkəmləndirir, polis-vətəndaş münasibətlərində qarşılıqlı etimadı daha da gücləndirir.

# Süni intellekt və hüquqi məsuliyyət

## Qlobal çağırışlar və rəqəmsal inkişaf strategiyaları

*(Əvvəli 1-ci səhifədə)*

Süni intellekt hüquq və təhlükəsizlik baxımından da yeni çağırışlar formalaşdırır. Bu gün beynəlxalq ictimaiyyətin qarşısında duran əsas vəzifə texnologiyanın inkişafını məhdudlaşdırmaq deyil, onun təhlükəsiz, şəffaf, məsuliyyətli və insan hüquqlarına hörmət prinsipləri əsasında tətbiqini təmin etməkdir.

### *Beynəlxalq hüquq süni intellekti necə tənzimləyir?*

Son illər aparıcı beynəlxalq təşkilatlar süni intellektin hüquqi və etik çərçivəsinin formalaşdırılması istiqamətində mühüm addımlar atıblar. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında dəfələrlə vurğulanıb ki, süni intellekt bəşəriyyət üçün böyük imkanlar yaratdığı kimi, idarə olunmadığı halda qlobal təhlükəsizlik və insan hüquqları üçün də ciddi risklər yarada bilər. Bu məqsədlə BMT-nin Süni İntellekt üzrə Yüksək Səviyyəli Məşləhətçi Orqanı beynəlxalq idarəetmə mexanizmlərinin yaradılmasını tövsiyə edib.

UNESCO-nun 2021-ci ildə qəbul etdiyi "Süni İntellektin Etikası haqqında Tövsiyə" bu sahədə ilk qlobal etik sənəd hesab olunur. Sənəddə insan hüquqlarının qorunması, şəffaflıq, hesabatlılıq, ayrı-seçkiliyin qarşısının alınması, şəxsi məlumatların mühafizəsi və insan nəzarətinin saxlanılması əsas prinsiplər kimi müəyyən edilib.

2024-cü ildə Avropa Şurasının qəbul etdiyi "Süni intellekt, insan hüquqları, demokratiya və qanunun aliliyi haqqında Çərçivə Konvensiyası" isə dövlətlərin bu sahədə hüquqi öhdəliklərini müəyyən edən ilk çoxtərəfli beynəlxalq müqavilə kimi tarixə düşüb.

Avropa İttifaqının qəbul etdiyi Süni İntellekt Aktı isə yüksək riskli süni intellekt sistemləri üçün xüsusi hüquqi tələblər müəyyənləşdirib. ABŞ, Böyük Britaniya, Yaponiya, Sinqapur və Cənubi Koreya isə fərqli yanaşmalar tətbiq etsələr də, ümumi məqsəd eynidir: innovasiyanı dəstəkləməklə yanaşı, insan hüquqlarını və milli təhlükəsizliyi qorumaq. Digər mühüm məsələ şəxsi məlumatların qorunmasıdır. Süni intellekt sistemləri böyük həcmdə məlumat emal etdiyindən vətəndaşların şəxsi həyatının toxunulmazlığı xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən məlumatların təhlükəsizliyi və emal qaydaları beynəlxalq hüququn əsas istiqamətlərindən birinə çevrilib.

Şəffaflıq prinsipi də xüsusi önəm daşıyır. Vətəndaş bilməlidir ki, qarşısındakı sistem insan deyil, süni intellektdir və qəbul edilən qərarın hansı məntiqə əsaslandığını anlamaq hüququna malikdir. Bu yanaşma beynəlxalq praktikada "izah edilə bilən süni intellekt" konsepsiyası kimi tanınır.

### *Hüquqi məsuliyyət kimə məxsusdur?*

Süni intellektin tətbiqi ilə bağlı ən mürəkkəb məsələlərdən biri hüquqi məsuliyyətdir. Sürücüsüz avtomobil qəza törədərsə, tibbi diaqnostika sistemi yanlış qərar verərsə və ya maliyyə alqoritmi böyük zərərə səbəb olarsa, məsuliyyəti kim daşımalıdır? Hazırda beynəlxalq hüquqda bu suala vahid cavab yoxdur. Əksər dövlətlər məsuliyyətin proqram təminatını hazırlayan şirkət, istifadəçi, xidməti təqdim edən qurum və sistemi tətbiq edən təşkilat arasında bölüşdürülməsi modelinə üstünlük verirlər. Bu yanaşma mülki, inzibati, bəzi hallarda isə cinayət məsuliyyəti institutlarını özündə birləşdirir.

### *Dipfeyk yeni təhlükəsizlik çağırışıdır*

Süni intellekt dezinformasiyanın miqyasını da əhəmiyyətli dərəcədə artırıb. Dipfeyk texnologiyaları vasitəsilə hazırlanan saxta video və audio materiallar ictimai rəyin manipulyasiyası, seçki proseslərinə müdaxilə, maliyyə dələduzluğu və dövlət təhlükəsizliyi üçün ciddi risklər yaradır. Məhz buna görə Dünya İqtisadi Forumu dezinformasiyanı və süni intellektdən sui-istifadəni qarşıdakı illərin əsas qlobal riskləri sırasında göstərir.

### *İnsan mərkəzli süni intellekt gələcəyin əsas şərtidir*

Süni intellekt yaxın onilliklərdə iqtisadi inkişafın, dövlət idarəçiliyinin və innovasiyanın əsas hərəkətverici qüvvələrindən biri olacaq. Lakin onun uğuru yalnız texniki imkanlarla deyil, hüquqi təminatlar, etik prinsiplər, şəffaflıq, hesabatlılıq və ictimai etimadla ölçüləcək. Beynəlxalq təcrübə göstərir ki, süni intellektin davamlı inkişafı yalnız insan hüquqlarına hörmət, qanunun aliliyi və təhlükəsizlik prinsipləri əsasında mümkündür. Bu yanaşma ölkələrin qlobal rəqəmsal transformasiya prosesində mövqeyini möhkəmləndirməklə yanaşı, süni intellektin cəmiyyətin rifahına, iqtisadi inkişafına və dövlət idarəçiliyinin səmərəliliyinə xidmət edən etibarlı vasitəyə çevrilməsi üçün möhkəm zəmin yaradacaq.

# İsti hava yollarda ehtiyatlı davranış tələb edir

### Yüksək temperatur diqqəti zəiflədir, qəza riskini artırır



Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi yay mövsümündə müşahidə olunan yüksək temperaturla əlaqədar sürücülərə diqqətli olmaları barədə xəbərdarlıq edib. İdarədən bildirilib ki, isti hava sürücülərdə diqqətin zəifləməsinə, tez yorulmaya, reaksiya müddətinin uzanmasına və səhhətdə qəfil narahatlıqların yaranmasına səbəb ola bilər. Bu amillər isə yol-nəqliyyat hadisələrinin başvermə riskini artırır. Bu baxımdan xüsusilə yaşlı sürücülərə və xroniki xəstəliklərdən əziyyət çəkən şəxslərə günün ən isti saatlarında zərurət olmadıqda səfərə çıxmamaq tövsiyə olunur.

Yol Polisi digər sürücülərə də nəqliyyat vasitələrinin texniki sazlığını, xüsusilə soyutma və əyləc sistemlərini, təkərləri və kondisionerin vəziyyətini əvvəlcədən yoxlamağı, uzunmüddətli səfərlər zamanı mütəmadi fasilələr verərək istirahət etməyi məsləhət görür.

Sürücülər halsızlıq, yuxululuq və ya digər narahatlıq hiss etdikdə hərəkəti dayandırmalı, müəyyən edilmiş sürət həddinə riayət etməli və riskli manevrlərdən çəkinməlidirlər.

Eyni zamanda, azyaşlı uşaqların avtomobildə nəzarətsiz saxlanılması, günəş altında qalmış nəqliyyat vasitəsinin isə hərəkətə başlamazdan əvvəl havalandırılması vacib hesab edilir.

Yol polisi sürücüləri səfərlərini günün nisbətən sərin saatlarına planlaşdırmağa, hava şəraitini nəzərə almağa, yol hərəkəti qaydalarına ciddi əməl etməyə və özlərinin, eləcə də digər hərəkət iştirakçılarının həyat və sağlamlığını təhlükə altına qoyacaq davranışlardan çəkinməyə çağırıb.

# Yay mövsümündə təhlükəsizliyin keşiyində

### Polis çimərlik və turizm zonalarında fasiləsiz xidmət aparır








Yay fəslinin özünəməxsus xüsusiyyətlərindən biri də insanların kütləvi şəkildə istirahət məkanlarına üz tutmasıdır. Havanın temperaturunun yüksəlməsi ilə çimərliklərdə, su hövzələrinin ətrafında, park və istirahət mərkəzlərində insan sıxlığı xeyli artır. Belə şəraitdə ictimai qaydanın qorunması, vətəndaşların təhlükəsiz istirahətinin təmin olunması və mümkün risklərin vaxtında qarşısının alınması xüsusi əhəmiyyət kəsb edir.

Bu məqsədlə Daxili İşlər Nazirliyi tərəfindən respublikanın bütün bölgələrində, xüsusilə çimərliklərdə, turizm marşrutlarında və istirahət zonalarında polis əməkdaşlarının xidməti gücləndirilmiş rejimdə təşkil olunub.

İctimai qaydanın və ictimai təhlükəsizliyin etibarlı təmin edilməsi üçün xidmətə əlavə polis naryadları və xidməti avtomobillər cəlb olunub. Respublikanın bütün turizm istiqamətlərində, çimərliklərdə, su hövzələrinin ətrafında və insanların daha çox üz tutduğu digər ərazilərdə naryad qruplarının fəaliyyəti gücləndirilib.

Eyni zamanda, əsas avtomobil yollarında və istirahət məkanlarına aparan magistrallarda nəqliyyatın intensivliyi nəzərə alınaraq yol-patrul xidmətinin fəaliyyəti də genişləndirilib. Məqsəd həm hərəkətin fasiləsizliyini təmin etmək, həm də yol-nəqliyyat hadisələrinin qarşısını almaqdır.

Polis əməkdaşları xidmət zamanı yalnız hüquqpozmalara qarşı mübarizə aparmır, həm də köməyə ehtiyacı olan vətəndaşlara operativ yardım göstərirlər. Daxil olan müraciətlərə çevik reaksiya verilir, zərurət yarandıqda digər dövlət qurumları ilə koordinasiyalı qabaqlayıcı tədbirlər həyata keçirilir. Bu tədbirlər xoşagəlməz halların qarşısının operativ şəkildə alınmasına və insanların təhlükəsizliyinin etibarlı təmin edilməsinə yönəlib.

Yay mövsümündə təhlükəsizliyin təmin olunması yalnız polis əməkdaşlarının fasiləsiz xidməti ilə deyil, istirahətə üz tutan hər bir vətəndaşın məsuliyyətli davranışı və qaydalara riayət etməsi ilə tam təmin edilə bilər. Bu münasibət ümumi təhlükəsizlik mühitinin formalaşmasında da mühüm rol oynayır. Çimərliklərdə müəyyən olunmuş qaydalara riayət etmək, azyaşlıları nəzarətsiz qoymamaq, nəqliyyat vasitələrini yol hərəkəti qaydalarına uyğun idarə etmək və polis əməkdaşlarının qanuni tələblərinə əməl etmək həm şəxsi, həm də ictimai təhlükəsizliyin vacib şərtlərindəndir. Buna görə vətəndaşların rahat istirahətinə və mümkün risklərin azaldılmasına xidmət edən bu tədbirlərə, qaydalara əməl etməklə hər kəs dəstək olmalıdır.

# Narkotik bəlasının qarşısı alınır

### Yabanı halda bitən narkotik tərkibli bitkilər məhv edilir

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə yabanı halda bitən narkotik tərkibli bitkilərin yetişmə mərhələsində ikən aşkarlanaraq məhv edilməsi effektiv mübarizə üsulu sayılır. Çünki belə ərazilər narkotik vasitələrin xammal bazası olmaq kimi ciddi risk daşıyır. Onların polis əməkdaşları tərəfindən vaxtında müəyyən edilərək məhv edilməsi isə belə cinayətkar niyyətlərin həyata keçməsinə imkan vermir.



Yaz-yay aylarının gəlməsi və təbiətin canlanması ilə yabanı halda bitən narkotik tərkibli bitkilərin aşkarlanaraq məhv edilməsi ilə bağlı xəbərlərin çoxalması da bunun bariz nümunəsidir. Məsələn, iyulun 21-də keçirilən əməliyyatlar zamanı yabanı halda bitmiş 6 000 ədəd çətənə kolu aşkarlanaraq məhv edilib. Bir gün sonra 3,7 ton çəkidə 30 056 ədəd çətənə və xaş-xaş kolu yandırılıb, növbəti gün isə daha 2,2 ton çəkidə 9 200 ədəd yabanı çətənə kolu aşkarlanaraq məhv edilib. Yəni cəmi üç gün ərzində on minlərlə narkotik tərkibli bitkinin dövriyyəyə daxil olmasının qarşısı alınıb.

Kənardan baxanda yabanı halda bitən çətənə kollarının məhv edilməsi adi aqrotexniki tədbir təsiri bağışlasa da, burada söhbət ictimai təhlükəsizliyin qorunmasından gedir. Nəzarətsiz qalacağı halda cinayətkar qruplar üçün hazır xammal mənbəyi olması riski bu bitkiləri kriminogen vəziyyətə təsirini də qaçılmaz edir. Narkotik vasitələrin dövriyyəsinin artması ilə oğurluq, soyğunçuluq, quldurluq və digər ağır cinayətlər arasında birbaşa əlaqənin olması artıq sübut olunmuş reallıqdır. Asılılıqdan əziyyət çəkən şəxslərin növbəti dozanı əldə etmək üçün qanunsuz əməllərə əl atması təcrübədə tez-tez rast gəlinən hallardandır. Yabanı halda bitən narkotik tərkibli bitkilərin məhv edilməsi isə bu zəncirin ilk həlqəsini qırır.

Cinayətkarlıqla mübarizənin uğuru onun baş verməsinə imkan verməməkdir. Yabanı çətənə və xaş-xaş kollarının vaxtında aşkarlanaraq məhv edilməsi məhz belə tədbirlərdəndir. Polis əməkdaşlarının vaxtaşırı həyata keçirdikləri bu əməliyyatlar narkotik vasitələrin əldə edilməsinin qarşısını alır və vətəndaşların təhlükəsizliyinin qorunmasına xidmət edir. Bu baxımdan yabanı halda bitən narkotik xassəli bitkilərə qarşı mübarizə polisin fəaliyyətinin prioritet istiqamətlərindən biri olaraq qalır.

# Kibercinayətin üstü açılıb

### Biznes hesablarına kiberhücum edən şəxs saxlanılıb

KMBİ
Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi

Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə müxtəlif hüquqi şəxslərə məxsus biznes hesablarına xüsusi proqram təminatları vasitəsilə qanunsuz müdaxilə edilərək pul vəsaitlərinin ələ keçirilməsi barədə müraciətlər daxil olub. Keçirilmiş əməliyyat-texniki tədbirlərlə qeyd olunan cinayət əməlini törətməkdə şübhəli bilinən 2008-ci il təvəllüdlü Z.Nəhmədov müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, Z.Nəhmədov xüsusi proqram təminatları hazırlayaraq müxtəlif MMC-lərə məxsus biznes hesablarına aid identifikasiya məlumatlarını ələ keçirib. Daha sonra həmin məlumatlardan istifadə etməklə biznes hesablarına giriş üçün elektron təsdiq sorğuları göndərib. Sorğuların göndərilmə mənbəyi yoxlanılmadan onlar təsdiqlədikdən sonra Z.Nəhmədov hesablara qanunsuz giriş əldə edərək orada olan pul vəsaitlərini ələ keçirib. Sonradan o, cinayət yolu ilə əldə etdiyi vəsaitlərin mənbəyini gizlətmək və "iz" itirmək məqsədilə həmin pulları kriptovalyutaya çevirərək leqallaşdırıb.

İlkin araşdırma zamanı Z.Nəhmədovun zərərçəkmişlərə 100 min manatdan artıq ziyan vurduğu məlum olub.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Avtoyumada müəmma

### Hadisənin üstünü polis açıb

Paytaxtın Xətai rayonu ərazisində zərərçəkənə məxsus "Subaru" markalı avtomobil qaçırılıb.

Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə talama cinayətini törətməkdə şübhəli bilinən A.Həsənov Kürdəmir rayonu istiqamətində hərəkətdə olarkən saxlanılıb. Araşdırmalarla şübhəli şəxsin müştərinin yuyulması üçün təhvil verdiyi avtomobili özbaşına götürərək məntəqədən uzaqlaşdığı məlum olub.

Faktla bağlı təhqiqat aparılır.

# Yanğın törətdi, məsuliyyətə cəlb olundu

### O, əkin sahəsini yandırıb


Oğuz rayonunun Qarabulaq kəndi ərazisində yanğın hadisəsi törədən şəxs polis əməkdaşları tərəfindən müəyyən edilib.

Regional qrupumuzdan bildirilib ki, araşdırmalarla yanğının rayon sakini R.Əhmədov tərəfindən törədildiyi məlum olub. Hadisə nəticəsində 2 hektar əkin sahəsi yanıb. Həmin şəxs barəsində qanunvericiliyə uyğun tədbir görülüb.

# Narkotacirlər həbs olunub

### Çətənə kolu əkib-becərməkdə şübhəli bilinən şəxsi polis saxlayıb

Polis əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, eləcə də narkotik xassəli bitkilərin kultivasiyasına qarşı mübarizə davam etdirilir.

Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə narkotiklərin qanunsuz dövriyyəsini təşkil etməkdə şübhəli bilinən 37 yaşlı M.Miriyev saxlanılıb. Ondan 9 kiloqrama yaxın narkotik vasitə olan həşiş və marixuana aşkarlanıb.

Həmçinin Lerik Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat həyata keçirilib. Tədbirlərlə qeyd edilən cinayət əməlini törətməkdə şübhəli bilinən 35 yaşlı F.Hüseynov saxlanılıb. Onun idarə etdiyi avtomobildən 9 kiloqram narkotik vasitə olan marixuana aşkarlanıb.

Xəzər Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat nəticəsində isə Şüvəlan qəsəbəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən H.Sultanov saxlanılıb. Onun yaşadığı evin həyətyanı sahəsinə baxış zamanı kultivasiya yolu ilə yetişdirilmiş, ümumi çəkisi 232 kiloqram olan 46 ədəd çətənə kolu aşkarlanaraq götürülüb.

Faktlarla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Sərhədləri aşan əməkdaşlıq

## INTERPOL beynəlxalq cinayətkarlığa qarşı mübarizədə necə fəaliyyət göstərir?

**Müasir dövrdə cinayətkarlıq artıq ölkə sərhədləri ilə məhdudlaşmır. Kibercinayətlər, insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi, terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıq qrupları müxtəlif ölkələri əhatə edən mürəkkəb şəbəkələr yaradır. Belə şəraitdə hüquq-mühafizə orqanlarının beynəlxalq əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Bu əməkdaşlığın ən mühüm platformalarından biri isə INTERPOL – Beynəlxalq Cinayət Polisi Təşkilatıdır. INTERPOL dünyanın ən böyük beynəlxalq polis əməkdaşlığı təşkilatı hesab olunur və 196 üzv ölkəni bir araya gətirir. Təşkilatın əsas məqsədi müxtəlif dövlətlərin hüquq-mühafizə orqanları arasında operativ məlumat mübadiləsini təmin etmək, beynəlxalq axtarışların həyata keçirilməsinə dəstək vermək və transmilli cinayətkarlığa qarşı mübarizəni gücləndirməkdir.**

### ►Cinayətkarlar üçün sərhəd yoxdur

Qloballaşma və texnologiyanın inkişafı cinayətkar qrupların fəaliyyət imkanlarını da genişləndirib. Bir ölkədə törədilən cinayət digər ölkədə davam etdirilə və ya cinayətkarlar qısa müddətdə müxtəlif dövlətlər arasında hərəkət edə bilərlər. Bu səbəbdən beynəlxalq əməkdaşlıq hüquq-mühafizə fəaliyyətinin ayrılmaz hissəsinə çevrilib.

INTERPOL üzv ölkələrin polis qurumları arasında məlumat mübadiləsini sürətləndirərək cinayətkarların müəyyənləşdirilməsinə və saxlanılmasına kömək edir. Təşkilatın məlumat bazalarında axtarışda olan şəxslər, oğurlanmış nəqliyyat vasitələri, saxta sənədlər, itkin düşmüş şəxslər və digər mühüm məlumatlar toplanır.

### ►Qırmızı bülleten nədir?

INTERPOL haqqında danışarkən ən çox diqqət çəkən anlayışlardan biri qırmızı bülletendir. Bu sənəd üzv ölkələrə müəyyən şəxsin axtarışda olması barədə məlumat verir və onun yerinin müəyyənləşdirilməsi məqsədi daşıyır. Qırmızı bülleten beynəlxalq




həbs orderi deyil, lakin ölkələrin hüquq-mühafizə orqanları üçün mühüm məlumatlandırma vasitəsi hesab olunur. Bununla yanaşı, təşkilat müxtəlif məqsədlər üçün fərqli rəngli bildiriş sistemlərindən də istifadə edir. Bu bildirişlər təhlükəli cinayətkarlar, itkin düşmüş şəxslər, naməlum meyitlər və digər hallarla bağlı məlumatların operativ paylaşılmasına xidmət edir.

### ►Kibercinayətkarlığa qarşı mübarizə

Son illərdə kibercinayətkarlığın sürətlə artması INTERPOL-un fəaliyyət istiqamətlərindən birini daha da aktuallaşdırıb. Bank kartı məlumatlarının oğurlanması, fişinq hücumları, zərərli proqram təminatı və digər rəqəmsal təhdidlər üzrə beynəlxalq əməliyyatlar təşkil olunur. Təşkilat üzv ölkələrin mütəxəssisləri arasında təcrübə mübadiləsini təşviq edir, təlimlər keçirir və yeni təhlükələr barədə məlumat paylaşır. Bu əməkdaşlıq sayəsində bir çox beynəlxalq kibercinayətkar şəbəkələrin fəaliyyəti ifşa edilir.

### ►Təhlükəsizlik naminə qlobal əməkdaşlıq

Beynəlxalq təcrübə göstərir ki, transmilli cinayətkarlıqla mübarizədə heç bir ölkə təkbaşına uğur qazana bilməz. Cinayətkarların sərhəd tanımadığı bir dövrdə hüquq-mühafizə orqanlarının da əlaqələndirilmiş fəaliyyəti vacibdir.

Bu baxımdan INTERPOL müxtəlif ölkələrin polis qurumları arasında körpü rolunu oynayır, məlumat mübadiləsini sürətləndirir və beynəlxalq təhlükəsizliyin təmin olunmasına töhfə verir. Müasir dünyada qlobal təhlükələrə qarşı mübarizədə belə əməkdaşlıq mexanizmlərinin rolu getdikcə daha da artır.

*A.Tahirova*

# Üz tanıma texnologiyası

## Axtarışda olan şəxslərin müəyyən edilməsi sürətlənir




Süni intellekt və rəqəmsal texnologiyaların inkişafı hüquq-mühafizə orqanlarının fəaliyyətinə də yeni imkanlar qazandırır. Bu yeniliklərdən biri canlı üz tanıma texnologiyasıdır. Sistem xüsusi kameralar vasitəsilə insanların üz cizgilərini skan edir və əldə olunan məlumatları polis bazalarındakı axtarış məlumatları ilə müqayisə edir.

Avstraliyanın bəzi əyalətlərində polis bu texnologiyanı sınaq proqramı çərçivəsində tətbiq etməyə başlayıb. Bunun üçün üz tanıma kameraları ilə təchiz olunmuş xüsusi patrul avtomobilindən istifadə edilir.

Sınağın ilk həftəsində sistem 130 mindən çox şəxsi skan edib. Nəticədə 33 mümkün uyğunluq müəyyənləşdirilib, onların yoxlanılması zamanı isə 19 nəfər saxlanılıb.

Üz tanıma texnologiyasının əsas üstünlüyü axtarışda olan və ya itkin düşmüş şəxslərin insanların sıx toplaşdığı ərazilərdə daha operativ müəyyən edilməsidir. Bundan əlavə, sistem ağır cinayətlərdə axtarılan və ya ictimai təhlükə yarada biləcək şəxslərin aşkarlanmasında polis əməkdaşlarına əlavə dəstək verir.

Bununla belə, sistemin verdiyi uyğunluq siqnalı şəxsin avtomatik saxlanılması üçün hüquqi əsas sayılmır. Hər bir xəbərdarlıq polis əməkdaşı tərəfindən ayrıca yoxlanılır, şəxsin kimliyi dəqiqləşdirilir və yalnız qanunvericiliyin tələblərinə uyğun əsas olduqda müdaxilə edilir. Bu yanaşma yanlış tanınma ehtimalından irəli gələn riskləri minimuma endirilməsinə və vətəndaşların hüquqlarının qorunmasına xidmət edir.

# Ən soyuq qitədə qanun keşikçiləri...

## Antarktidada asayiş necə qorunur?



Yer kürəsinin ən soyuq, ən küləkli və ən əlçatmaz qitəsi olan Antarktida haqqında danışarkən insanların ağlına ilk olaraq sonsuz buzlaqlar, pinqvinlər və elmi ekspedisiyalar gəlir. Lakin çoxlarının bilmədiyi maraqlı məqamlardan biri də burada hüquq qaydalarının necə təmin edilməsidir. Axı müxtəlif ölkələrdən gəlmiş minlərlə insanın yaşadığı və işlədiyi bir ərazidə asayişin qorunmasına da ehtiyac var. Bəs dünyanın sonu hesab edilən bu qitədə polis varmı?

### Dövlətsiz qitə

Antarktida dünyanın yeganə qitəsidir ki, burada daimi əhali yaşamır və heç bir dövlət tam suverenlik hüququna malik deyil. Qitənin hüquqi statusu 1959-cu ildə imzalanmış Antarktika Müqaviləsi ilə müəyyən edilib. Müqaviləyə qoşulan dövlətlər razılığa gəliblər ki, Antarktida yalnız sülh məqsədləri və elmi tədqiqatlar üçün istifadə olunacaq. Hazırda qitədə müxtəlif ölkələrə məxsus onlarla elmi stansiya fəaliyyət göstərir. Yay mövsümündə burada yaşayan və işləyən insanların sayı 4-5 minə çatsa da, qış aylarında bu rəqəm təxminən 1000 nəfərə qədər azalır.

Antarktidada ənənəvi mənada polis idarələri, patrul xidmətləri və ya hüquq-mühafizə orqanları fəaliyyət göstərmir. Bunun əsas səbəbi qitənin heç bir dövlətin ərazisi hesab edilməməsidir. Lakin bu, o demək deyil ki, burada qanun yoxdur.

Elmi stansiyalarda çalışan şəxslər öz ölkələrinin qanunlarına tabedirlər. Məsələn, ABŞ-a məxsus stansiyada işləyən amerikalı vətəndaş ABŞ qanunvericiliyi ilə, Avstraliya stansiyasında çalışan avstraliyalı isə Avstraliya qanunları ilə məsuliyyət daşıyır. Stansiyaların rəhbərləri və təhlükəsizlik üzrə məsul şəxsləri gündəlik asayişin qorunmasına nəzarət edir, mübahisələrin qarşısını alır və zəruri hallarda ilkin tədbirlər görürlər.

### Cinayət baş verərsə nə olur?

Antarktidada cinayət hadisələri çox nadir hallarda baş versə də, tarixdə belə faktlar mövcuddur. Ən çox rast gəlinən hallar əmək mübahisələri, fiziki qarşıdurmalar, sərxoş vəziyyətdə davranış pozuntuları və təhlükəsizlik qaydalarının pozulması ilə bağlı olub. Belə hallarda ilk araşdırmanı stansiya rəhbərliyi aparır. Əgər hadisə ciddi xarakter daşıyırsa, məlumat aidiyyəti ölkənin hüquq-mühafizə orqanlarına göndərilir. Şübhəli şəxs növbəti təyyarə və ya gəmi reysi ilə qitədən çıxarılaraq öz ölkəsinə aparıla bilər.

Bəzi hallarda isə cinayət işləri minlərlə kilometr uzaqda yerləşən məhkəmələrdə araşdırılır. Bu səbəbdən Antarktida hüquqşünaslar tərəfindən ən mürəkkəb yurisdiksiya zonalarından biri hesab edilir.

### Antarktidada qeydə alınan maraqlı hadisələr

Tarix boyu qitədə bir sıra diqqətçəkən insidentlər yaşanıb. 2018-ci ildə Rusiyaya məxsus Bellinqshauzen stansiyasında iki əməkdaş arasında mübahisə yaranıb. İddialara görə, əməkdaşlardan biri digərinə bıçaqla xəsarət yetirib. Hadisədən sonra şübhəli şəxs Rusiyaya göndərilərək istintaqa cəlb olunub.

1980-ci illərdə isə Argentinaya məxsus stansiyalardan birində qəsdən yanğın törədilməsi hadisəsi baş verib. Bu hadisə Antarktida tarixində ən ciddi hüquq pozuntularından biri hesab olunur.

Araşdırmalar göstərir ki, uzun müddət məhdud kollektivdə yaşamaq, sərt hava şəraiti və təcrid olunmuş mühit bəzən psixoloji gərginlik yarada bilər. Buna görə də ekspedisiyalara seçilən şəxslər xüsusi tibbi və psixoloji yoxlamalardan keçirilirlər.

Antarktidada təhlükəsizliyin əsas təminatçısı sərt daxili qaydalar və beynəlxalq əməkdaşlıqdır. Elmi stansiyalarda çalışan şəxslər təhlükəsizlik, əmək intizamı və fövqəladə hallar üzrə müntəzəm təlimlər keçirlər. Ən kiçik qayda pozuntusu belə ciddi nəticələrə səbəb ola bilər. Çünki qitənin sərt şəraitində bir nəfərin məsuliyyətsiz davranışı bütün ekspedisiyanın həyatını təhlükə altına qoya bilər.

Son illər Antarktidaya turist axınının artması yeni təhlükəsizlik məsələlərini gündəmə gətirib. Hər il minlərlə turist buzlar qitəsinə səfər edir. Bu isə gələcəkdə hüquqi tənzimləmələrin və beynəlxalq nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsini zəruri edə bilər.

Ekspertlərin fikrincə, Antarktida yalnız elmi araşdırmaların deyil, həm də beynəlxalq hüququn praktik tətbiqinin maraqlı nümunəsidir. Burada polis idarələri və patrul avtomobilləri olmasa da, qanunun aliliyi prinsipi dünyanın ən ucqar nöqtəsində belə öz əhəmiyyətini qoruyub saxlayır. Nəticə etibarilə, Antarktida polis xidmətinin olmadığı yeganə qitə kimi tanınsa da, burada hüquq qaydalarının təmin olunması beynəlxalq müqavilələr, ölkələrin qanunvericiliyi və elmi stansiyaların daxili nizam-intizam qaydaları vasitəsilə həyata keçirilir. Bu isə göstərir ki, insan fəaliyyətinin olduğu hər yerdə təhlükəsizlik və hüququn qorunması vacib məsələ olaraq qalır.

Ancaq söhbət dünyanın ən ucqar, sivilizasiyadan uzaq məntəqəsində yerləşən polis bölməsindən gedəndə, ilk yada düşənlərdən biri Qərbi Avstraliyanın Varakurna bölgəsində yerləşən Varakurna Polis Bölməsi olur. Avstraliyanın cənubunda səhrada yerləşən bu bölməyə ən yaxın şəhərdən çatmaq üçün saatlar tələb olunur. Buradakı polislər nəhəng və kimsəsiz bir əraziyə nəzarət edirlər.

Böyük Britaniyanın Tristan-da-Kunya Polis Bölməsi də dünyanın ən ucqar yaşayış adası olan Tristan-da-Kunyada yerləşir. Cənubi Afrikadan 2400 km məsafədə olan bu adada bir neçə polis əməkdaşı xidmət edir.

*Aytən Tahirova*

# Kosta-Rikada 10 il axtarışda olan cinayətkar saxlanılıb

## Əməliyyat zamanı səkkiz polis əməkdaşı yaralanıb



Kosta-Rikada ölkənin ən çox axtarılan şəxslərindən biri, “Diablo” ləqəbi ilə tanınan 41 yaşlı Alexandro Arias polis tərəfindən keçirilən xüsusi əməliyyat nəticəsində saxlanılıb. O, təxminən 10 ildir ki, hüquq-mühafizə orqanlarından gizlənirdi.

Alexandro Arias narkotik vasitələrin qanunsuz dövriyyəsi, quldurluq, qəsdən adam öldürmə və çirkli pulların yuyulması kimi ağır cinayətlərdə ittiham olunurdu.

ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsi (DEA) də onu beynəlxalq narkotik alverləri ilə əlaqədar axtarırdı və tutulmasına kömək edəcək şəxs üçün 500 min dollar məbləğində mükafat vəd etmişdi.

Şəxsin Kosta-Rikanın Sarapiki bölgəsində saxlanılması zamanı polis əməkdaşları ilə silahlı dəstə üzvləri arasında təxminən bir saat davam edən silahlı qarşıdurma baş verib. Atışma nəticəsində dəstə üzvlərindən biri zərərsizləşdirilib, səkkiz polis əməkdaşı isə müxtəlif dərəcəli xəsarətlər alıb.

Əməliyyat zamanı Alexandro Ariasla yanaşı daha iki dəstə üzvü də saxlanılıb. Hadisə yerindən beş tüfəng, üç tapança və müşahidə məqsədilə istifadə olunan dronlar götürülüb. Saxlanılan şəxslərin ölkə ərazisində baş vermiş 360 qətl hadisəsində iştirak etdiyi ehtimal edilir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik